**Cənubi Azərbaycanın əfsanəvi xanəndəsi Əbülhəsən xan muğam sənətinin ünlü simalarından biridir. Yalnız Cənubi Azərbaycanda deyil, Şimali Azərbaycanda da çox məşhurdur. Onun ifası Şimali Azərbaycan muğam ifaçılarının da formalaşmasına səbəb olub.**

# Cənubi Azərbaycanımızın məşhur xqnəndəsi - Səttar xan ona "İqbali Azər" deyirdi...



Əbülhəsən xan Musa xan oğlu İqbali Azər 1870-ci ildə Qəzvin vilayətinin Əlvənd kəndində, bəzi variantlara görə isə Təbriz şəhərində doğulub. Əbülhəsən xan Azərbaycan müğənnisi olmaqla yanaşı həm də Təbriz şəhərinin meri olub. Əbülhəsən xan Musa xan oğlu mükəmməl mədrəsə təhsili alıb. Məlumatlara görə, Təbrizdə yaşayıb və gənc yaşlarından istedadlı, muğamı dərindən bilən sənətkar kimi tanınıb. Adı və səsi bütöv Azərbaycana yayılan Əbülhəsən xan 1905-1911 illərdə Məşrutə inqilabına qoşulur, inqilabi fəaliyyətdə olan sənətkarın gözəl sənətinə Səttar xan çox böyük qiymət verib. Səttar xan Əbülhəsən xana "İqbali Azər" adını verib. Əbülhəsən xan gözəl tembrli, məlahətli, güclü səsə malik xanəndə idi. Onun ifasında "Şur", "Çahargah", "Mahur", "Əbuəta", xüsusilə "Segah" muğamları yüksək emosional tərzdə səslənib. Özünəməxsus üslubda ifa etdiyi "Segah" muğamı İranda "Əbülhəsənxan segahı" adı ilə məşhurlaşıb. Qeyd edək ki, Əbülhəsən xanın səsi 1914-cü ildə Tiflisdə "Qrammofon" şirkəti tərəfindən vala yazılıb, bu şəhərdə konsertləri olub. Seyid Şuşinski Əbülhəsən xan ilə yaxından dostluq edib, onun yaradıcılığından çox bəhrələnibdir. Əbülhəsən xan vallarından birində "Hümayun" muğamını oxuyaraq, üzərində onu Seyid Şuşinskiyə həsr etdiyini yazdırıb.

Musiqi irsimizlə bağlı araşdırma yazılarından birində Savalan Fərəcov Əbülhəsən xan İqbal barədə maraqlı qeydlər edib. O, yazır ki, İqbal musiqi mədəniyyəti tariximizdə yüz illərlə yaşayacaq sənətkardır. "Atası Molla Musa dövrünün tanınmış alimlərindən sayılıb. O, yeddi yaşında ikən atası vəfat edir. Erkən yaşlarından ağır ailə qayğıları ilə üzləşir. Sonra ailələri Qəzvin şəhərinə köçür. İlk musiqi təhsilini məşhur musiqişünas Hacı Molla Kərimdən alır. Müəllimi Əbülhəsənin ecazkar səsini, istedadını görərək onun böyük gələcəyi olacağını deyir. Əbülhəsən gənc yaşlarından xalq arasında tanınır. Bir neçə dəfə Təbrizə dəvət olunur. Təbrizlilər arasında elə şöhrət qazanır ki, vəliəhd Məhəmmədəli Mirzə onu saraya dəvət edir. Bir müddət sarayda qalır. Müzəffərəddin şahın vəfatından (1906) sonra o, vəliəhdlə birlikdə Tehrana gedir. 1914-cü ilin martında Əbülhəsən xan Avropa ölkələrinə qastrola çıxır. Əvvəlcə Tiflisə gəlir. Gəlişindən xeyli əvvəl şəhərin görkəmli yerlərində elanlar asılır. Qəzetlərdə xüsusi xəbərlər dərc olunur. "Zakavkazskaya reç" qəzetində dərc olunan xəbərlərin birində deyilib: "Avropaya gedərkən İran şahının saray müğənnisi Əbülhəsən xan Tiflisdə qonaq olacaqdır. Yerli müsəlman cəmiyyətinin arzusu ilə o, Tiflisdə bir neçə konsert vermək fikrindədir. Xanəndənin səsi olduqca güclü, məlahətli, həm də yüksək tembrə malikdir. Onu dinləyəndə adama elə gəlir ki, Şərq motivlərini oxuyan Avropa müğənnisini dinləyirsən. Şübhəsiz ki, konsertlər müsəlmanlardan savayı Şərq musiqisinin pərəstişkarları olan digər qafqazlıları da maraqlandıracaq".

Qeyd edilir ki, Əbülhəsən xanın Tiflisdə ilk konserti 1914-cü ilin martın 26-da "Kazyonnı teatr"da (indiki Z.Paliaşvili adına opera teatrı) məşhur sənətkarlar - xanəndə Tahirzadə, tarzən Dərviş xan, kamançaçı Bağır xan və zərb vuran Abdulla xanın iştirakı ilə olur. Konsert böyük müvəffəqiyyətlə keçir. Məlumata görə, dövrün məşhur jurnalisti Eynəli Soltanov "Şərq konserti" adlı məqaləsində bu barədə yazıb: "Tamaşaçıların arasında şərq musiqisinin mahir biliciləri və tələbkar pərəstişkarları var idi. Geniş tamaşaçı kütləsi qarşısında ilk dəfə çıxış edən xanəndə klassik İran mahnılarının bir neçəsini ifa etdi. Əbülhəsən xan nə qədər ucadan oxusa, nə qədər çətin zəngulə vursa da onun səsi bütün mərhələlərdə təmiz və ahəngdardır".

Yazılanlara görə, o zaman Tiflisdə yaşayan məşhur müğənni Seyid Şuşinski Əbülhəsən xanın konsertlərində yaxından iştirak edir. Xalq artisti Mustafa Mərdanov xatirələrinin birində yazır: "Şərqin məşhur xanəndələrindən sayılan Əbülhəsən xan öz dəstəsilə Tiflisə konsert verməyə gələndə, birinci növbədə Seyid Şuşinskinin görüşünə getdi. İki sənətkar çox səmimi görüşdülər. Seyid Şuşinski Cənubi Azərbaycandan gəlmiş qonaqlara öz xərci ilə frak tikdirib səhnəyə çıxartdı. Əbülhəsən xan ürəkaçan gözəl bir səslə "Bayatı-Şiraz" və "Rast" dəstgahı oxudu. O, dinləyiciləri valeh etdi. Bu konsertdə iştirak edən Gürcüstan opera sənətinin banisi Vano Saraçaşvili Əbülhəsən xanın sənətkarlığını yüksək qiymətləndirərək dedi: "Əbülhəsən xanın nəyi Karruzodan əskikdir?" O, səhnəyə çıxıb Əbülhəsən xanı bağrına basıb öpdü.

Əbülhəsən xan İqbal-Soltan Tiflisdə olarkən tarzən Dərviş xanın müşayiəti ilə bir çox muğam və təsnifləri oxuyub qrammofon vallarına yazdırır... Əbülhəsən xanı Tiflisdə hörmətlə qarşılayanlardan biri də mütəfəkkir yazıçı Cəlil Məmmədquluzadə olub. Seyid Şuşinski xatirələrində qeyd edir: "Cəlil Məmmədquluzadə Əbülhəsən xanı hörmətli bir qonaq kimi "Molla Nəsrəddin" jurnalının redaksiyasına dəvət etdi. Böyük qonaqlıq oldu. Ziyafətdə Əbülhəsən xanın xahişi ilə mən də oxudum. Axırda İqbal-Soltan elə bir "Kürdü-şahnaz" oxudu ki, aldığım təəssüratdan səhərəcən yata bilmədim".

Əbülhəsən xanın oxuduğu "Kürdü-Şahnaz" həqiqətən müğənnilər üçün nümunə olub. Təsadüfi deyil ki, görkəmli müğənni Xan Şuşinski gənc yaşlarında Əbülhəsən xanın valda oxuduğu "Şahnaz"ı yerli-yerində o qədər təqlid edir ki, hamı onu "Əsl xan kimi (yəni Əbülhəsən xan kimi) oxuyur" - deyə tərif ediblər.

Yazılanlara görə, Əbülhəsən xan İqbal Azərbaycan vokal məktəbinin bütün incəliklərini mükəmməl bilən böyük müğənni olur. Onun istedadına Şərqin ən böyük müğənniləri həsəd aparıblar. Musiqişünas Ruhulla Xaliqi Əbülhəsən xan İqbal haqqında ürək sözlərini belə qələmə alıb: "Mən axırıncı dəfə Əbülhəsən xanın səsini 1946-cı ildə Təbrizə ezam olunan vaxtı eşitdim. O, hələ də yaxşı oxuyurdu. Cənubi Azərbaycan vokalistlərinin tam bir nəsli Əbülhəsən xan İqbalın ifaçılıq məktəbinin yetirməsidir".

Şərq vokal sənətinin görkəmli nümayəndəsi Əbülhəsən xan İqbal ömrünün ixtiyar çağında - 1970-ci ildə, 99 yaşında Təbrizdə vəfat edir. Onun ecazkar səsi isə çevrilib qəlblərdə, könüllərdə yaşayır...

Mətbuatda gedən məlumatlara görə, xalq şairi Süleyman Rüstəm "Yenə canlandı əski xatirələr..." sərlövhəli məqaləsində Əbülhəsən xan İqbalın xanəndəlik sənətindən məhəbbətlə söz açır. Görkəmli sənətkarla 1942-ci ildə Təbrizdə görüşdüyünü xatırlayır:

"Azərbaycanın incəsənət ustaları - Bülbül, Həqiqət Rzayeva, Əlövsət Sadıqov, Yavər Kələntərli və b. Təbriz şəhərinə dostluq görüşünə gəlmişdilər. Görüş şəhər məktəblərindən birində keçirilirdi. İlk olaraq Bülbül oxudu. Sonda görüşü idarə edən cavan təbrizlilər adından Əbülhəsən xan İqbalın çıxış edəcəyini elan etdi. Bu vaxt Bülbül iki əli ilə üzünü tutdu və dedi:

- Ay Süleyman, mən nə etdim. Heç bilirsən Əbülhəsən xan kimdir?

- Xeyr, bilmirəm.

- Şərqin dahi xanəndəsidir. Mən gərək məclisdə mahnı yox, bir dəstgah oxuyaydım.

...Salon alqışdan titrədi. O, S.Ə.Şirvaninin "Zülfünü bas yarama, qoyma məni qan aparır" rədifli qəzəlini oxudu... Oxuyarkən dodaqları, gözləri, bir sözlə, bütün siması təbəssümə qərq olmuşdu. Sonra gəlib Bülbüllə çox səmimi və mehribancasına qucaqlaşıb görüşdü..."

Bir müddət Təbriz şəhərinin meri işləyən Əbülhəsən xan İqbal uzun ömür sürüb və 1970-ci ildə, 99 yaşında vəfat edən sənətkarın ölümündən böyük Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyar çox kədərlənir. Sənətkarın məzarı başında yanıqlı bayatılar söyləyir:

Xəzan gəldi, gül apardı,
Bir şeyda bülbül apardı…

Təkcə Güney Azərbaycanın deyil, o taylı bu taylı Azərbaycanın, eləcə də türk dünyasının, Şərq aləminin böyük sənətkarı Əbülhəsən xan İqbal barədə mətbuatda onun barədəsində dərc olunan yazılara istinadən məqalə hazırladıq. Əlbəttə, xalqımızın böyük sənətkarlarından biri olan Əbülhəsən xan irsindən böyük kitablar yazılmalıdır ki, onun xanəndəlik və vokal sənəti sahəsində oynadığı rol barədə yeni nəsil geniş məlumat əldə etsin.

***İradə SARIYEVA***

zərdə tutulub.